## Əlibala Hacızadə

### Qədrimi Bilmədin

Qədrimi bilmədin, ay qədirbilməz,
Sən ömrünboyunca tək qalacaqsan.
Küsdürdün qəlbimi, qapına gəlməm,
Sən ömrünboyunca tək qalacaqsan.

Səadət qonmuşdu başına sənin,
Çünki mən çıxmışdım qarşına sənin,
Namərd zəhər qatdı aşına sənin,
Sən ömrünboyunca tək qalacaqsan.

Gözyaşın yuyacaq yanaqlarını,
Yuya bilməyəcək günahlarını,
Tanrı da eşitməz o ahlarını,
Sən ömrünboyunca tək qalacaqsan.

Pərişan, peşiman baxıb yollara,
Nə ah çək, nədə ki sən geyin qara,
Məni diri-diri gömdün məzara,
Sən ömrünboyunca tək qalacaqsan.

Qədrimi bilmədin, ay qədirbilməz,
Sən ömrünboyunca tək qalacaqsan.
Sən ömrünboyunca tək qalacaqsan.